BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4* *Sosial-siyasi elmlər seriyası* *2015*

## POLİTOLOGİYA

UOT 321; 323

# AZƏRBAYCAN RESPUBLİKASININ SİYASİ SİSTEMİNDƏ BLOKLAŞMA PROSESLƏRİNİN ÇOXPARTİYALI DEMOKRATİYANIN FORMALAŞMASINA TƏSİRİ MƏSƏLƏLƏRİ

**K.T.ALOYEVA**
***Bakı Dövlət Universiteti***
***aloyeva.kemale@gmail.com***

*Məqalədə Azərbaycan şəraitində siyasi bloklaşma prosesinin ilk rüşeymlərinin meydana gəlməsi, siyasi sistemdə müxtəlif ideoloji əsaslara söykənən siyasi qüvvələrin irəli çıxması məsələləri tədqiq edilir. Azərbaycan Respublikasının siyasi sistemində bloklaşma prosesi bugünədək davam etməkdədir. Qeyd etmək lazımdır ki, Azərbaycanda siyasi bloklaşma prosesinin özünəməxsus xüsusiyyətləri vardır. Belə ki, ölkədə demokratiyanın inkişafı kontekstində siyasi sistemdə perspektivdə olan müxtəlif partiyaların yaranması və çoxpartiyalı sistemin ilkin əsaslarının qoyulması vacib hadisələrdən idi.*

*Çoxpartiyalı demokratiyanın əlamətlərindən olan siyasi qüvvələrin bloklaşması prosesinin Azərbaycan təcrübəsi, uğurları, perspektivlərinin təhlili ölkədə demokratiyanın inkişafının xarakterini müəyyən etməkdə əhəmiyyətli dərəcədə yardımçı ola bilər. Bu mənada sözügedən proseslərin təhlili vacib əhəmiyyətə malikdir.*

**Açar sözlər:** bloklaşma, siyasi partiyalar, ictimai hərəkatlar, Xalq Cəbhəsi, demokratiya

Müasir dünyanın siyasi həyatında blok və koalisiyaların yaradılması çox mühüm rol oynayır. Hakimiyyətə can atan, öz məqsədlərini reallaşdırmaq istəyən qruplar öz ətraflarında daha çox qüvvənin toplanmasında maraqlıdırlar. Demokratik dövlətlərdə bu proseslər sivil üsullarla həyata keçirilir. Bu cür dövlətlərdə siyasi proseslərin gedişini siyasi partiyalarla yanaşı, siyasi partiyaların yaxından iştirakı ilə yaradılmış birliklər müəyyən edir. Siyasi blokların formalaşması üçün çoxpartiyalı sistem vacib şərtdir. Lakin elə çoxpartiyalı dövlətlər mövcuddur ki, onlarda artıq özünəməxsus çoxpartiyalılıq ənənələri mövcuddur və bu da müəyyən mənada siyasi partiyaların ciddi bloklaşmasını qeyri-müəyyən edir. Ənənəvi ikipartiyalı sistemin mövcud olduğu Böyük Britaniya, ABŞ elə dövlətlərdəndir. Bir sıra siyasi sistemlərdə isə seçicilərin səsləri o qədər səpələnir ki, bloklaşma olmadan keçinmək mümkün deyil. Bu cür

hallarda bloklar siyasi sabitliyin təminatçısı rolunda çıxış edirlər. Sosialist düşərgəsinin dağılması bu düşərgəyə məxsus ölkələrdə blok və koalisiyaların yeni dalğasını yaratdı. Əlbəttə, yeni yaranmış bu birliklər stabil deyildilər. Qısa müddət ərzində bu birliklər çoxlu sayda partiyalara, hərəkatlara bölündü və bu bölünmə nəticəsində yeni blokların formalaşma prosesi indi də davam edir.

Bloklaşmada müstəqil element kimi elita da iştirak edir, lakin elitanın bu proseslərə təsiri birbaşa deyil, dolayısı yolladır. Ümumilikdə, cəmiyyətdə eyni zamanda, siyasi sistemdə elitanın rolu danılmazdır.

Siyasi partiyaların və maraq qruplarının fəaliyyətinin ən yüksək dövrü seçkiqabağı və seçki kompaniyası dövrünə düşür. Seçki kompaniyası zamanı cəmiyyətdəki sosial hüquqlar və tələbatlar qabarır, ölkədə siyasi qüvvələr qruplaşır və ya yenidən qruplaşır, çoxluğun iradəsinin ifadə edilməsi şəklində özünə dəstək tapan sosial-siyasi mənafelər formalaşır.

Seçki prosesinin keçirildiyi ölkədəki siyasi proseslərin xarakterindən asılı olaraq bloklaşma prosesi həm seçkiqabağı kompaniya zamanı, həm də seçkidən sonra baş verə bilər. Seçkidən əvvəl formalaşmış bloklarla, seçkidən sonra qalib partiyanın formalaşdırdığı blok bir-birindən xarakterinə görə fərqlənir. Seçkidən əvvəl formalaşmış blokların əsas məqsədi qələbəyə nail olmaqdırsa, seçkidən sonrakı blokların əsas təyinatı idarəetmənin uzunömürlülüyünü və siyasi sabitliyin qorunmasını təmin etməkdir.

Seçkilərin əsas tənzimləyicisi seçki sistemidir. Seçki sistemi seçkilərin təşkilinin ümumi prinsiplərini və seçici səslərinin mandata çevrilməsi üsullarını müəyyən edir. Seçki sistemi dedikdə,vətəndaşların seçkili dövlət orqanlarının seçilməsində iştirakını, habelə seçicilərlə seçkili dövlət orqanlarının üzvləri arasında əlaqələrini müəyyən edən qaydalar başa düşülür (1, 266). Seçki sisteminin əsas təyinatı xalqın iradəsinin təmsilçiliyini müəyyən etmək, eləcə də yaşamaq qabiliyyətli və effektiv hakimiyyət orqanlarının formalaşdırılmasıdır.

Ümumilikdə, belə bir nəzəri müddəa mövcuddur ki, normal siyasi bloklaşma meyilləri əsasən, demokratik siyasi cəmiyyətlər üçün xarakterikdir. Bununla belə tarix səhnəsində demokratiyanın bərqərar olması uğrunda və yaxud ona təhlükə törəndiyi vaxtlarda da demokratik qüvvələrin geniş spektrini əhatə edən siyasi bloklarda birləşərək mübarizə apardığının şahidi olmaq mümkündür. Təbii ki, belə bloklar çox geniş, bəlkə də ümummilli xarakter daşıyaraq bu və ya digər siyasi qrup yaxud qrupların maraqlarından yuxarıda dayanaraq, ümumxalq hərəkatı səviyyəsinə çatır. Qeyd olunan xarakterinə baxmayaraq, həmin bloklar da normal siyasi blok xüsusiyyətlərinə malik olmaqla siyasi bloklaşma üzrə tədqiqatların obyektinə çevrilmişlər. Həmin bloklaşmalar qarşılıqlı inteqrasiya nöqteyi-nəzərindən digər bloklardan çox fərqlənirlər. Belə ki, əgər adi bloklarda iştirak edən siyasi partiya və digər təşkilatlar öz təşkilati strukturlarını müstəqil şəkildə qoruyaraq blokun tərkibində fəaliyyət göstərirsə, haqqında danışdığımız bloklaşmalarda isə bu yoxdur. Məhz bu xarakteri də onu adi siyasi bloklardan fərqləndirir. Bu tipli blokun yaranmasında siyasi partiyalarla yanaşı, ictimai təşkilatlar, hərəkatlar, dini qurumlar, qadın və gənclər

təşkilatları və s. iştirak edir. Belə geniş siyasi və ictimai strukturları özündə birləşdirmək üçün müxtəlif dövrlərdə müxtəlif dövlətlərdə ayrı-ayrı formalardan istifadə edilmişdir. Xalq Cəbhəsi də belə formalardan biridir (2, 23). İlk dəfə Xalq Cəbhəsi 1935-ci ildə Fransada yaradılmışdır.

Azərbaycanda da XX əsrin sonlarında siyasi mübarizənin Xalq Cəbhəsi formasından istifadə edilmişdir. Belə ki, həmin tarixə nəzər yetirsək görərik ki, 80-ci illərin sonunda Azərbaycanın sosial və siyasi həyatında bir sıra təlatümlər yaşanmışdır. SSRİ-nin dağılmasına aparan proseslərin yaratdığı narahatçılıqlarla yanaşı, ölkəmiz üçün spesifik olan Dağlıq Qarabağ problemi də sosial həyatın bütün sahələrinə öz təsirini göstərirdi. Belə bir məqamda ölkənin problemlər məngənəsində sıxıldığı bir dövrdə iqtidar partiyası olan Azərbaycan SSR Kommunist Partiyasının (AKP) cəsarətsiz mövqeyi həm geniş xalq kütlələrini, həm də ziyalıları hərəkətə gətirdi. Əsasən də Qarabağda baş verən hadisələr ölkədəki siyasi proseslərə xüsusilə təkan verirdi. Artıq problemlərin həllində AKP-dən ümidini kəsmiş bir sıra fəal ölkə ziyalıları və gənclər baş verən prosesləri nəzarətə götürmək məqsədilə müxtəlif siyasi təşkilatlar yaratmağa başlamışdılar. Bunlardan “Çənlibel”, “Araz” və başqalarını göstərmək olar. Hadisələrin gedişi bu qrupları respublikanın sovetpərəst kommunist hakimiyyətinə qarşı siyasi müxalifətin özəyinə çevirdi.

Təşkilatlar azsaylı olsalar da milli şüurun oyanması və xalqın siyasi təşkilatlanmasında mühüm rol oynadılar. Ölkədəki inzibati amirlik sistemi zəifləndikcə adı çəkilən cəmiyyətlərin fəallığı, toxunduğu məsələlər dairəsi və aşkarlığı da artırdı. Azərbaycanın böyük siyasətində Heydər Əliyev şəxsiyyətinin yoxluğu, ittifaq rəhbərliyinin artıq parlaq seçilməyə başlayan ermənipərəst siyasəti və erməni millətçilərinin fəallaşması ilk növbədə Azərbaycan cəmiyyətində adekvat əks-səda doğururdu. Bu səbəbdən də adı çəkilən qeyri-formal cəmiyyətlərin fəallığı artmaqla yanaşı yeniləri də yaranırdı.

Bütün bunlarla yanaşı ölkədə mitinqlər də intensivləşmişdi. Bu mitinqləri isə haqqında danışdığımız yeni təşkilatlar idarə edirdi. Beləliklə də, mövcud təşkilatlar arasında koordinasiyanın yaranmasına ehtiyac duyulurdu. Bu da müvafiq siyasi idarəetmə mərkəzinin yaranmasının əsasını qoydu.

Artıq sosializm dövrü üçün xarakterik olmayan ayrı-ayrı siyasi qüvvələrin birləşdiyi yeni bir qurumun meydana gəlməsi reallığa çevrilmişdi. 1988-ci ilin axırından Azərbaycanda Xalq Cəbhəsi yaratmaq təşəbbüsü ilə artıq AXC Təşəbbüs Mərkəzi, Gənc Alimlər Klubu, “Varlıq”, “Çənlibel” cəmiyyətləri, Mitinqlərin Təşkili Mərkəzi və digər qruplar çıxış edirdilər. Beləliklə də, 1989-cu il 16 iyun tarixində gizli şəraitdə AXC-nin təsis konfransı keçirildi.

Tədqiqatçı D.İsmayılov AXC-nin yaranmasını və onun Azərbaycan xalqının siyasi həyatındakı rolunu aşağıdakı kimi xarakterizə etmişdir: “Keçmiş sovet imperiyasının dağılması prosesində Azərbaycanda ilk kütləvi təşkilat kimi yaranmış Azərbaycan Xalq Cəbhəsinin mahiyyəti həm insanın, həm də xalqın öz müqəddəratını təyin etməsi uğrunda hərəkatdan ibarət idi... Azərbaycan xalqı liberal dəyərlərdən ibarət olan hüquqi dövlət, vətəndaş cəmiyyəti və dövlətin

əzməyə hüququ olmadığı əsas insan hüquqları haqqında ilk dərsi ondan aldı” (3, 196).

AXC-nin yarandığı dövrdə ölkənin mövcud durumu siyasi qüvvələrin birləşməsini tələb edirdi. Bu dövrdə güclü və siyasi həyatda monopolist AKP ilə mübarizə aparmaq üçün ideoloji mübahisələri kənara qoyaraq vahid və güclü müxalif təşkilata böyük ehtiyac var idi.

Eyni zamanda 20 Yanvar faciəsi də hakim qüvvənin hələ də güclü olduğunu göstərərək ümumi mübarizə üçün cəmiyyətin bütün qüvvələrinin birliyinin vacibliyini göstərirdi. Ona görə də, hətta AXC rəhbərliyində təmsil olunanların siyasi xətti ilə razılaşmayanlar belə sovet quruluşunun dağılması və Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi naminə qüvvələrin birləşməsində-siyasi bloklaşmada maraqlı idilər.

Bununla da yaranan yeni qurum – AXC ölkədə fəaliyyət göstərən əksər demokratik qüvvələrin birliyinə - siyasi bloka çevrildi. Ümumiyyətlə, bu tipli blokun yaranmasında siyasi partiyalarla yanaşı, ictimai təşkilatlar, hərəkatlar, dini qurumlar, qadın və gənclər təşkilatları və s. iştirak edir.

Məhz AXC–nin yaranması ilə Azərbaycanda siyasi qüvvələrin bloklaşması təcrübəsi meydana çıxdı. Siyasi ədəbiyyatda AXC-ni siyasi blokla yanaşı ictimai-siyasi hərəkat da adlandırırlar. Əslində, bu yanaşma da onun siyasi blok olduğunu inkar etmir, əksinə onun həqiqətən də siyasi blok olduğunu sübut edir. Belə ki, məlumdur ki, ictimai-siyasi hərəkat çox geniş anlayışdır və siyasi mübarizə vasitəsi kimi də irihəcmli tərkibə malikdir. Yəni ictimai-siyasi hərəkatın tərkibində bir deyil, bir neçə, hətta cəmiyyətin bütün əsas aparıcı qüvvələri, həmçinin geniş xalq kütlələri təmsil olunur. AXC-nin də bu cür adlanması bir daha sübut edir ki, onun tərkibində müxtəlif, amma məqsədləri eyni olan qüvvələr cəmləşib və bu nöqteyi-nəzərdən sözügedən qurum bloklaşma nümunəsi kimi qəbul edilməlidir. İctimai-siyasi hərəkat anlayışı isə sırf mübarizə aparma üsulu, mübarizənin kütləviliyi nöqteyi-nəzərindən yanaşma nəticəsində meydana çıxmışdır.

Yaranmış yeni qüvvələrin birliyi olaraq AXC sözügedən qüvvələri bir mərkəzdə cəmləyə biləcək və daha dəqiq desək yeni qüvvələrin əsas tutduğu ideologiyalardan çıxış edən, Azərbaycan cəmiyyəti üçün tamamilə yeni olan prinsiplərə söykənən Məramnamə qəbul etdi.

Bir sıra hallarda AXC-ni siyasi təşkilat kimi çevik və operativ qərarvermə mexanizminə malik olmayan, işlək iyerarxiyadan imtina edən təşkilat kimi tənqid edirlər. Məsələn, “Azərbaycan Respublikası 1991-2001” adlı geniş müəllif kollektivinin əməyinin məhsulu olan ədəbiyyatda qeyd olunur ki, Cəbhə demokratik mərkəziyyət prinsipindən imtina etmişdi. AXC sədrinin heç səsvermə hüququ yox idi. Cəbhə daxilində plüralizm yüksək səviyyədə idi. Hələ demokratiya mədəniyyəti olmayan cəmiyyətdə belə bir ifrat demokratik nizamnamə ilə çox mürəkkəb siyasi şəraitdə xalqa rəhbərlik edə biləcək güclü təşkilat yaratmaq mümkün deyildi (4, 81).

Tədqiqatçı alim, politoloq A.Mirzəzadə tərəfindən qeyd olunan AXC-nin yaranması zamanı yol verilən çatışmazlıqların xüsusiyyətlərinə diqqət yetirər-

kən də onun siyasi bloklara xas nöqsanları olduğu üzə çıxır. Məsələn, A.Mirzəzadə birinci çatışmazlıq kimi qeyd edir ki, AXC onun yaradılmasında marağı olan bütün qüvvələrin birgə səyi və geniş hazırlıq işi ilə deyil, tələsik yaradılmışdı (5, 87). Bu isə AXC-də xeyli siyasi qüvvənin cəmləşdiyini inkar etmir, əksinə bunu təsdiq edərək ikinci, amma indiki məqam üçün, yəni bizim AXC-nin blok olmasını təsdiq etmək məqsədimizə o qədər də aidiyyatı olmayan təşkilatlanma prosesində maraqlı qüvvələrin mənafelərinin tam əhatə olunmaması fikrini qabardır.

Təbii ki, AXC siyasi bloklaşmanın ibtidai nümunələrinə xas xüsusiyyətləri özündə əks etdirirdi. Çünki həmin dövrdə Azərbaycanda fəaliyyət göstərən siyasi qrupların hətta özləri belə mükəmməl təşkilatlanmaya malik deyildilər.

Həmin dövr üçün populyar olan ideyalarla çıxış edən AXC tezliklə siyasi hakimiyyətə gəldi. Heç bir idarəçilik və siyasi təcrübəyə malik olmayan bu siyasi qüvvə elə ilk gündən naşılıq nümayiş etdirməyə başlamışdı. Həmçinin dəqiq düşünülmüş proqrama malik olmaması, eyni zamanda həddən artıq liberal təşkilati struktura və qərar qəbulu mexanizminə malik olması, daxili çəkişmələr və digər bu kimi səbəblər AXC-nin qısa müddətdə nüfuzdan düşməsinə, ardınca isə hakimiyyətdən kənarlaşmasına səbəb oldu. Bununla bərabər qeyd edək ki, hələ hakimiyyətdə olduğu müddətdə AXC-nin tərkibindən bir sıra partiyalar ayrılmağa başlamışdılar. Akademik Ramiz Mehdiyevin qənaətincə isə xarici təcrübəyə uyğun olaraq AXC öz tarixi missiyasını başa vurduqdan sonra buraxılmalı idi: "... Pribaltika ölkələrində.... respublikalar müstəqilliyini əldə edəndən sonra Xalq Cəbhəsi qurumlarının bir qismi başqa ad altında partiyaya çevrildi, bəziləri isə vəzifələrini bitmiş hesab edib fəaliyyətlərini dayandırdılar. Əslində bundan sonra Azərbaycan Xalq Cəbhəsi öz missiyasını başa vurduğundan buraxılmalı idi. Çünki söhbət artıq imperiyaya və digər xarici düşmən qüvvələrə qarşı birləşməkdən deyil, müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğunun məzmun, forma və metodlarından gedirdi" (6, 80).

Müasir dövrdə Azərbaycanda çoxpartiyalı sistemin formalaşması məsələlərini araşdırarkən görərik ki, ölkədə demək olar ki, dünya təcrübəsində normal qəbul olunan bütün əsas ideoloji istiqamətlər üzrə siyasi qüvvələr meydana çıxmışdır. Digər tərəfdən qeyd etmək lazımdır ki, Azərbaycanda çox sevindirici haldır ki, mürtəce ideologiyalara söykənən partiyalara rast gəlinməmişdir. Eyni ideoloji istiqamətlər üzrə yaranmış partiyalar arasında isə inteqrasiya meylləri və müəyyən mərhələdən sonra bloklaşma perspektivləri ortaya çıxır. Qeyd etdiyimiz kimi, Azərbaycanda da müəyyən ideologiyaları əsas tutan xeyli sayda siyasi partiya yaranmışdı. Məhz bu da ölkə siyasi sistemi üçün bloklaşma proseslərini labüd edirdi. İdeoloji istiqamət üzrə bloklaşma əslində nisbətən yetkin siyasi sistemlər üçün xarakterik sayıla bilər. Digər bir misal kimi 2005-ci ildə yaradılmış "Azadlıq" blokunu da göstərmək olar. Blokda əsasən mühafizəkar millətçi partiyalar təmsil olunsa da, Lalə Şövkətin liderlik etdiyi Liberal Partiya da bu birliyə qoşulmuşdu. Əslində liberalizmlə mühafizəkarlıq bir-birləri ilə təxminən əks olan ideologiyalardır. Məsələn, konservatorlar bərabərlik

dedikdə yalnız insanların hüquq bərabərliyini qəbul edirlər, liberallar isə insanı qrup, sinif, din və digər bu kimi mülahizələrdən kənar tutaraq, onu ən ali sərvət kimi dəyərləndirir, həmçinin kosmopolitizm, humanizm prinsiplərinə əsaslanırlar (1, 214). Konservatorlar liberallarla müqayisədə daha çox millətçidirlər. Eyni problem 2005-ci il parlament seçkiləri öncəsi meydana çıxmış “YeS” blokunda da mövcud idi. Aydınlaşdırmaq çətindir ki, blokun təsisçilərindən olan sağ mərkəzçi partiyanın – AMİP-in lideri Etibar Məmmədovla sosial-demokrat Araz Əlizadə birgə siyasi fəaliyyətə start verərkən şəxsi düşüncələrində və ya təmsil etdikləri siyasi partiyaların nizamnamələrindəki hansı ideoloji yaxınlıq amilinə söykənmişlər. Bu faktlar isə özlüyündə bir daha onu göstərir ki, Azərbaycanda bloklaşma prosesində ideoloji prinsiplər hələ ki, həlledici rola malik deyil. Qeyd olunan faktlardan belə nəticə çıxır ki, ölkədəki siyasi qüvvələr əsasən praqmatik fəaliyyətə üstünlük verirlər. Lakin bununla yanaşı bəzi hallarda ideoloji yaxınlıq prinsiplərinə görə meydana çıxmış bloklara da təsadüf olunmuşdur. Belə ki, 1995-ci ildə parlament seçkiləri ərəfəsində sol mərkəzçi blok yaradıldı. Bloka ASDP, Əmək partiyası və bir sıra digər sol təmayüllü qüvvələr daxil idi. Bundan başqa, 1994-cü ildə yaradılmış Demokratik Konqresdə isə milli ideologiyanı əsas tutan partiyalar birləşmişdi.

Azərbaycan siyasi sistemində siyasi bloklaşma təcrübəsini daha dərindən və hərtərəfli tədqiq edərkən tədqiqatçının diqqətini siyasi qüvvələrin təbii bloklaşması şəklində bir sıra spektrlərə bölünməsi prosesi xüsusi cəlb edir. İlk baxışdan bu spektrlərin hər biri onu təmsil edən siyasi partiyalar arasında heç bir rəsmi saziş olmadan, təbii şəkildə formalaşmış siyasi blok təəssüratı yaradır. Əslində mövcud olan spektrlərdə qərar tutmuş siyasi qüvvələrin bir siyasi blokda birləşməsi normal bir proses sayılardı. Lakin Azərbaycan reallığı ondan ibarətdir ki, bir partiyanın bu gün aid olduğu spektri sabah xırda bir səbəbdən tərk edəcəyi istisna deyil və bu, tez-tez müşahidə olunan haldır. Bu da Azərbaycanda hələ normal prinsiplərlə partiyalaşma prosesinin başa çatmadığının göstəricisidir.

Siyasi partiyaların haqqında söz açdığımız siyasi spektrlərini bir-birindən müxtəlif prinsiplərlə fərqləndirmək olar. Siyasi partiyaları siyasi spektrlərə bölərkən həmin siyasi partiyaların fəaliyyətləri, bu və ya digər məsələdə tutduqları mövqe və yaxud strategiyaları əsas götürülür. Bu nöqteyi-nəzərdən ilk növbədə ölkənin siyasi həyatında mühüm yer tutan Yeni Azərbaycan Partiyası (YAP) ayrılır. Təbii ki, YAP iqtidar partiyası olaraq ayrıca spektr təşkil edir. O, həm üzvlərinin sayına, ictimai-siyasi nüfuzuna, hakimiyyətdə təmsilçiliyinə, həm də bütün ölkəni əhatə edən təşkilati şəbəkəyə malik olmasına və s. görə fərqlənir.

YAP-a müxalif olan siyasi qüvvələrin özlərini də bir neçə spektrə bölmək mümkündür. Politoloq A.Mirzəzadənin fikrincə, bunlardan əsası və siyasi cəhətcə perspektivlisi liberal-demokrat yönümlü partiyalar düşərgəsidir (5, 170-171). A.Mirzəzadə uzun müddət bu düşərgəyə AMİP-in, sonradan AXCP-nin (islahatçıları) liderlik etdiyini qeyd edir. Siyasi proseslər isə göstərdi ki, bu dü-

şərgədə qərarlaşmış partiyalar uzun müddət öz mövqelərində qalmadılar. Yuxarıda adları çəkilən hər iki partiya bir müddət sonra radikal müxalifət düşərgəsinə keçdilər. Odur ki, bu düşərgədə olan partiyaların məhz liberal-demokrat ideologiyaya sadiq olduqları üçün orada qərarlaşmalarını və bu ideologiyanın təsiri ilə konstruktivlik və realistlik göstərmələrini iddia etmək düzgün olmazdı. Bu gün həmin düşərgədə Vətəndaş Həmrəyliyi Partiyası (VHP), Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası (BAXCP), Ümid, Böyük Quruluş partiyaları təmsil olunur. Bu isə bir daha Azərbaycanda siyasi partiyalaşma prosesinin hələ də keçid dövrünün əlamətləri ilə xarakterizə olunduğunu göstərir. Müxalif düşərgədə ikinci cinah kimi AXC hakimiyyəti dövründə rəhbər vəzifələr tutmuş siyasi qrupdan təşkil olunmuş "barışmaz müxalifət"i qeyd etmək olar. Həqiqətən də sözügedən spektrdə təmsil olunan siyasi partiyalar həmişə seçilmişlər. Bu düşərgənin ən uzunmüddətli təmsilçisi Müsavat partiyası olmuşdur. Müəyyən müddət AXCP də bu düşərgədə təmsil olunsa da 2000-ci ildə partiyanın bölünməsi nəticəsində onun "islahatçılar" qanadı buranı tərk etdi. "İslahatçılar" müəyyən müddət bu düşərgədən kənar qalsa da sonradan, yəni 2000-ci il parlament seçkilərindən bir müddət sonra, AMİP də həmçinin həmin ildən, barışmaz müxalifət düşərgəsinə qoşuldular.

Araşdırılan dövr ərzində Azərbaycanın müxalifət düşərgəsində mövcud olan cinahlardan birini də solçu qüvvələrin təşkil etdiyini söyləyə bilərik. Əslində bu cinahda təmsil olunan partiyalar və digər siyasi qüvvələr cəmiyyətdə o qədər də nüfuza malik deyillər. Bu düşərgənin nüfuz qazana bilməməsinin səbəbləri çoxpartiyalılığın formalaşması problemləri ilə əlaqəlidir.

Azərbaycanda siyasi qüvvələrin ayrı-ayrı spektrlərə bölünməsi, eyni zamanda bloklaşması prosesinin xüsusiyyətlərinə nəzər yetirərkən belə bir vacib sual meydana çıxır. Bəs, demokratiyanın əsas əlamətlərindən sayılan çoxpartiyalı sistem şəraitində siyasi bloklaşma prosesinin perspektivləri hansı istiqamətdə ola bilər? Problemə bu kontekstdən yanaşarkən ilk növbədə belə bir əsaslandırılmış tezis irəli sürmək mümkündür ki, siyasi proseslərin, ölkənin ümumi inkişafının istiqamətlərinin tez-tez dəyişməməsi, siyasi sistemin dağınıqlığının qarşısının alınması baxımından partiyaların çox olması o qədər də yaxşı hal hesab edilmir. Tədqiqatçı alim C.Sartori hesab edir ki, beşdən artıq partiyanın olması artıq ifrat çoxpartiyalılıqdır və bu da dövlətin mövcudluğu üçün təhlükə yarada bilər (7, 64).

Azərbaycanın siyasi palitrasında yer alan ifrat sol və ifrat sağ partiyaların cəmiyyətə və dövlətə təsiretmə imkanlarının çox zəif olduğu hiss edilir. Siyasi və ideoloji yönümləri hələ tam bəlli olmayan bir sıra partiyalar isə mərkəzə meyillidirlər. Bununla yanaşı, nəzərə almaq lazımdır ki, Azərbaycan kimi keçid dövrünü yaşayan cəmiyyətlərdə solçu, mərkəzçi və sağçı kimi anlayışlar hələ müəyyən qədər qarışıqdır və klassik Qərb standartlarına tam uyğun gəlmir.

Bu gün Azərbaycanda partiyalar nəzərəçarpan faktora çevrilmişdir. Lakin bununla belə partiyaların ölkənin həyati vacib problemlərinin həllindəki çəkisi, cəmiyyətə, dövlətə ümumi təsiretmə səviyyəsi çox aşağıdır.

Azərbaycanda siyasi partiyaları səciyyələndirən mühüm cəhətlərdən biri ondan ibarətdir ki, bunların heç də hamısı sosial ehtiyacdan, dövrün tələbindən yaranmamışdır: "Onların bir çoxu ayrı-ayrı şəxslərin, maraq qruplarının hakimiyyət ambisiyalarının təmin olunmasına xidmət edir" (4, 213). Bu da ölkədə çoxpartiyalı sistemin hələ tam dünya təcrübəsinə uyğun səviyyədə oturaqlaşmadığının göstəricilərindəndir. Həmçinin sözügedən fakt Azərbaycanda partiyaların nəinki ayrılıqda heç bloklar və koalisiyalar şəklində də həlledici rol oynaya bilməyəcəklərindən xəbər verir. Ölkə siyasi sistemində hazırki siyasi bloklaşma prosesinin uğursuzluğunun da səbəblərini elə burada axtarmaq lazım gəlir.

Qeyd etmək lazımdır ki, bugünkü Azərbaycan partiya sistemində mövcud olan partiyalar əsasən lider ətrafında formalaşan partiyalar, siyasi qurumlardır. Məhz bu da ideoloji prinsiplərin, partiya proqramlarının arxa plana keçməsinə rəvac vermişdir. Yəni bu gün proqramında hansı üstün ideyalar, planlar və s. olmasına baxmayaraq lideri ictimaiyyət tərəfindən az tanınan partiyalar siyasi sistemdə özünə yer tapa bilmir. Lakin lideri tanınmış şəxs olan partiyalar hansı ideoloji təməl prinsiplərinə malik olmalarına baxmayaraq kifayət qədər populyardırlar və müəyyən qədər elektorata da sahibdirlər. Məsələn, 1998-ci il prezident seçkilərinədək kifayət qədər populyarlığa malik olmuş Nizami Süleymanovun Müstəqil Azərbaycan partiyasının (MAP) sədri olması və yaxud bu partiya barəsində ictimaiyyətdə o qədər də informasiya yox idi.

Azərbaycan siyasi sisteminin problemlərindən biri də siyasi partiyaların sosial qruplarla zəif bağlılığıdır. Normalda hər bir siyasi partiyanın təmsil etdiyi müəyyən sosial qrup vardır. Həmin partiya təmsil etdiyi sosial qrupun mənafelərini müdafiə etməklə həmin qrupun siyasi dəstəyini və rəğbətini qazanmış olur. Lakin bu gün Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar bu kimi normal siyasi prinsiplərdən müəyyən qədər kənar fəaliyyət göstərirlər. Məsələn, Azərbaycanda mövcud olan müxalif siyasi partiyalar uzun müddətdir ki, eynitipli elektorata malikdirlər (Müsavat, AXCP, ADP, AMİP və s.). Həmin elektorat mövcud hakimiyyətdən bu və ya digər səbəblərə görə incik düşmüş və müəyyən qədər də 1992-1993-cü illərdə kiçik, orta, böyük vəzifə sahibi olmuş şəxslərdən ibarətdir. Əslində isə sözügedən partiyalar bu və ya digər sosial qrupun mövqeyindən çıxış etməyə cəhd göstərməlidirlər.

Tədqiqatçı Qoşqar Əliyevin təbirincə desək, "təəssüf ki, müstəqil Azərbaycan Respublikasında fəaliyyət göstərən siyasi partiyalar sivil ölkələrin çoxpartiyalı sistem sahəsində topladığı təcrübəyə kifayət qədər yiyələnməmişdir" (8, 157).

Əslində isə proqramlarında, nizamnamə və məramnamələrində qeyd etdikləri ideoloji və s. prinsiplərə diqqət yetirilərsə, həmin partiyalar orta sinfin – sahibkarların, biznes dairələrinin və s. mənafelərinin ifadəçisi olmalı idilər. Lakin bu gün reallıq ondan ibarətdir ki, həmin partiyalar orta sinfin (hələ tam formalaşmamasına baxmayaraq) mənafelərinin müdafiəçisi olmaq iqtidarında deyillər. Baxmayaraq ki, özlərini çox zaman sağ-mərkəzçi partiyalar adlandırırlar.

Digər tərəfdən isə həmin müxalif partiyaların bir problemi də ondan

ibarətdir ki, hakim YAP da həmin ideoloji prinsipləri bəyan edərək orta sinfin təmsilçisi kimi, sosial ədalət ideyalarına söykənən proqrama malikdir. Cəmiyyətdə formalaşan orta sinfə arxalanması isə YAP-ın gələcək uğurlarını elə əvvəlcədən proqnozlaşdırmağa imkan verir. Ümumiyyətlə, orta sinfin həm ümumilikdə cəmiyyətin, həm də onun siyasi həyatındakı rolunun dərk edilməsi mühüm əhəmiyyətə malikdir.

Ölkədə çoxpartiyalı sistemin inkişafı və təkmilləşməsində hakimiyyət də kifayət qədər rol oynayır. Yəni əgər hakimiyyət ölkədə demokratik cəmiyyətin plüralistik cəhətlərinin daimi inkişafında maraqlıdırsa, çoxpartiyalılığın da formalaşıb bərqərar olmasını təmin edir. Bu istiqamətdə hakimiyyətin dövlət adından görməli olduğu və gördüyü işlər çox geniş spektri əhatə edir. Çoxpartiyalılıq demokratiyanın ünsürlərindən biri olduğu üçün hakimiyyətin demokratiyaya verdiyi ümumi dəstəkdən o da yararlana bilər və əksinə, demokratiyanın boğulması fonunda çoxpartiyalılığın da qarşısına müəyyən maneələr çıxmış olar.

Dar çərçivədə götürülərsə, hakimiyyətin çoxpartiyalılığın inkişafına dəstəyi ilk növbədə yaranan yeni partiyaları rəsmi olaraq dövlət qeydiyyatından keçirməkdən ibarət ola bilər.

Azərbaycanda çoxpartiyalılıq şəraitində siyasi bloklaşmanın gələcək perspektivlərini proqnozlaşdırmağa çalışarkən onu təşkil edən elementlərin bugünkü durumunu və perspektivlərini də nəzərdən keçirmək vacibdir. Nəzəri ədəbiyyatda blokların formalaşmasında iştirak edən əsas elementlərin ideologiya, zorakılıq və ya qeyri-zorakılıq və liderlikdən ibarət olduğu göstərilmişdir. Sözügedən amillərin Azərbaycan şəraitində perspektivlərinə gəldikdə isə ilk növbədə ideologiyanı nəzərdən keçirək. Qeyd etmək lazımdır ki, bu gün Azərbaycanda bütün mütərəqqi ideologiyalara söykənən siyasi təşkilatlar təşəkkül tapıb. İctimaiyyət tərəfindən ən çox rəğbət bəslənilən və eyni zamanda müasir dünya birliyi tərəfindən dəstəklənən siyasi təşkilatlar isə liberal-demokratik dəyərlərə söykənən partiyalardır. Azərbaycanda bu ideologiyaya mənsub olan siyasi qüvvə (milli mənafe ilə birbaşa bağlı olan məsələlərdə neokonservatizmə meyillər üstünlük təşkil edir) hazırda hakimiyyətdədir. Ona müxalifətdə olan qüvvələr arasında isə ideoloji cəhətdən yetkinlik və bütövlük müşahidə olunmur. Müəyyən spektrdə bəzən liberal dəyərlərin zərurililiyi vurğulansa da əsasən millətçi-mühafizəkarlığa meyillilik üstünlük təşkil edir ki, belə ideologiyanın da müasir dövrün tələbləri ilə uzlaşmadığı sirr deyil.

Beləliklə də görmək mümkündür ki, Azərbaycanda siyasi bloklaşma prosesinin perspektivləri demokratiyanın inkişaf qanunlarına uyğun şəkildə formalaşacaqdır. Siyasi sistem, o cümlədən partiya sisteminin inkişafı yuxarıda qeyd etdiyimiz istiqamətdə baş verərsə, bir çox siyasi qüvvənin təbii formada siyasi səhnəni tərk etməsi və ya "əriməsi" gerçəkləşəcəkdir. Bu da demokratiyanın yüksək səviyyədə inkişafını, cəmiyyətin yetkinləşməsini, siyasi sistemin oturuşmasını göstərən amildir.

**ƏDƏBİYYAT**

1. Şirəliyev H.İ., Əhmədov Ə.C. Politologiya: Dərslik. Bakı: Təbib, 1997, 416 s.
2. Siyasi partiyaların blok və koalisiyalarının formalaşması. Bakı: "İnam" plüralizm mərkəzi, 1998, 47 s.
3. İsmayılov D.Y. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı: Adiloğlu, 2005, 344 s.
4. Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2001, 360 s.
5. Mirzəzadə A.B.Azərbaycanda çoxpartiyalı sistemin formalaşması. Bakı: Azərnəşr, 2001, 267 s.
6. Mehdiyev R.Ə.XXI əsrdə milli dövlətçilik. Bakı: XXI – YNE, 2003, 246 s.
7. Sartori G. Parties and Party Systems, A. Framework for Analysis. New York, 1976, 135 p.
8. Əliyev Q.T. Demokratiya və müasirlik. Bakı: Təbib, 1996, 232 s.

## ПРОБЛЕМА ВЛИЯНИЯ ПРОЦЕССОВ БЛОКИРОВАНИЯ НА ФОРМИРОВАНИЕ МНОГОПАРТИЙНОЙ ДЕМОКРАТИИ В ПОЛИТИЧЕСКОЙ СИСТЕМЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**К.Т.АЛОЕВА**

**РЕЗЮМЕ**

В статье изучается формирование эмбрионов первого политического блока, политическая система из разных политических сил, основанных на идеологических вопросах. В процессе политической системы процесс продолжается до сих пор. Следует отметить, что в Азербайджане политические партии имеют некоторые особенности. Таким образом, с точки зрения различных сторон в политической системе в контексте демократического развития, было создание и заложить основы важных событий, в первую очередь, многопартийности.

Могут в значительной мере помочь определить характер достижения опыта, достижении и перспективы развития демократии в Азербайджане В связи с этим имеет огромное значение анализ этих процессов.

**Ключевые слова:** блокирование, политические партии, общественные движения, Национальный Фронт, демократия

## THE INFLUENCE OF THE PROCESSES OF BLOCKING ON THE FORMATION OF MULTI-PARTY DEMOCRACY IN THE POLITICAL SYSTEM OF AZERBAIJAN REPUBLIC

**K.T.ALOYEVA**

**SUMMARY**

The paper studies the formation of the embryos of the processes of political blocking. The process of blocking is still continuing in the political system of the Republic of Azerbaijan. It should be noted that the process has its specific features.

Thus, in the context of the development of democracy in the country, the emergence of various parties and the formation of a multi-party system were marked as important events.

**Key words:** a block of political parties, social movements, the Popular Front , democracy